# Ermənistan Fransa asılılığından xilas ola bilmir

## Elə buna görə də sülh müqaviləsinin imzalanmasını uzadır



**Ermənistan və Azərbaycan arasında sülh müqaviləsinin imzalanması dünyanın siyasi gündəmində müzakirə olunan əsas mövzulardandır. Roma Papası Fransisk martın sonunda möminlərə müraciətində xəstəxanada olan zaman eşitdiyi xoş xəbərlər sırasında postsovet məkanından iki ölkə arasında sülh sazişinin yekun mətni üzrə razılığa gəlinməsini xüsusi olaraq qeyd etmişdir: "...Mən şadam ki, Ermənistan və Azərbaycan sülh sazişinin yekun mətni üzrə razılığa gəliblər. Ümid edirəm ki, o, ən qısa zamanda imzalanacaq və beləliklə, Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasına kömək edəcək".**

Məsələ burasındadır ki, yekun mətni üzrə razılığa gəlinsə də, prinsipial məsələlər üzrə fikir ayrılıqları hələ ki, aradan qaldırılmayıb. Ermənistanda dəqiq bilirlər ki, Azərbaycanın iki şərti - ATƏT-in Minski qrupu ləğv edilməyincə və Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazı iddiası olan maddə ləğv olunmayınca sülh müqaviləsi imzalanmayacaq. Dövlətimizin başçısının dediyi kimi, doğrudan da bu ölkə sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir.

Son zamanlar Ermənistan rəsmilərinin verdiyi bəyanatlara diqqət yetirsək görərik ki, bu ölkə sülh müqaviləsini imzalamaqda özünü maraqlı tərəf kimi göstərir. Bəs, onda sülh müqaviləsini imzalamağa mane olan səbəblər nədir? Şübhəsiz ki, buna xarici faktorlar imkan vermir. Diqqət etsək görərik ki, iki ölkə arasında sülh sazişinin razılaşması haqqında ölkə rəsmiləri açıqlama verdikdən sonra regionda geosiyasi marağı olan ölkələr, xüsusilə də Fransa fəaliyyətini artırıb. Yeri gəldi-gəlmədi, qərəzli kampaniya aparıb təsirində olan beynəlxalq qurumlar vasitəsi ilə ölkəmizə təzyiq göstərməyə çalışır. İstər Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baronun, istərsə də AŞPA-nın sədri Teodoros Rusopulos həqiqəti əks etdirməyən qərəzli fikirlərini təsadüfi hesab etmək olmaz. Bunlar Fransanın ölkəmizə qarşı koordinasiyalı şəkildə və ardıcıl təşkil etdiyi qarayaxma kampaniyasının davamıdır.

Xatırladaq ki, Fransanın Avropa və xarici işlər naziri Jan-Noel Baro aprelin 14-də Avropa İttifaqı (Aİ) ölkələrinin xarici işlər nazirlərinin Lüksemburqda keçirilən iclası çərçivəsində çıxış edərkən regional gərginlik, sülh prosesi və hazırda Azərbaycanda mühakimə olunan ermənilərlə bağlı bəzi anti-Azərbaycan iddiaları səsləndirib.

Fransanın əsas məqsədi heç də regionda davamlı sülhə nail olmaq deyil. Bu ölkənin əsas məqsədi sülh perspektivlərinə mane olmaqdır. 30 illik münaqişə dövründə ermənilər üçün çalışan belə bir dövlətin bu gün qərəzli mövqe sərgiləməsi təəccüblü görünmür. Lakin onu da anlamır ki, bu, Fransanın özünüifşası deməkdir.

Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Avropa İttifaqının Ermənistandakı missiyasının genişləndirilməsi ilə bağlı Parisin mövqeyini Moskvanın necə qiymətləndirdiyi ilə bağlı sualı cavablandırarkən bildirib ki, Fransa və Avropa İttifaqının Ermənistandakı fəaliyyəti Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına yardım etməklə bağlı deyil, əksinə, regionda kənar müdaxilənin gücləndirilməsinə və sabitliyin pozulmasına yönəlib. M.Zaxarova deyib: "Bəli, avropalıların, ilk növbədə fransızların öz geosiyasi məqsədlərinə nail olmaq üçün regional gərginliyin saxlanmasında maraqlı olduqlarını deməyə bütün əsaslar var. Onlar bizi inandırmağa çalışsalar da, Cənubi Qafqazda Parisin xoş niyyətlərinin olması ilə bağlı heç bir illüziyamız yoxdur". Diplomat qeyd edib ki, regionda gündəm gərginliyin azaldılması, normallaşması, sülh, quruculuq, yaradıcılıq prosesi ilə uzlaşmır. O bildirib: "Biz Avropa İttifaqının Ermənistandakı əsl məqsədlərinin nə olduğunu lap yaxşı bilirik. Onlar Bakı ilə İrəvan arasında münasibətlərin normallaşmasına yardım etmək istəmir. Avropa İttifaqının nümayəndələrini casus müşahidəçi adlandırmaq olar. Onlar həm daxildə, həm də xaricdə Ermənistanla qonşu olan bütün dövlətlərə və ölkələrə qarşı işləyirlər". O əlavə edib ki, Paris təmsilçilərinin bölgədə olarkən topladıqları məlumatlar heç bir şəkildə erməni həmkarları ilə paylaşılmır: "Çünki məqsəd başqadır. Onlar hər şeyi birbaşa Brüsselə göndərirlər. Nə üçün? Mənə elə gəlir ki, Brüsselin postsovet məkanında vəzifəsini heç kəs gizlətmir də. Bu, sonsuz xaos, ixtilaf, qarşıdurmadır". M.Zaxarova vurğulayıb ki, Aİ müşahidəçiləri regiona heç bir sabitlik gətirmir, əksinə, "yeni ayırıcı xətlər, yeni gərginlik ocaqları, yeni problemlər yaradırlar".

Avropalılar, ən əsası da Fransa öz geosiyasi məqsədləri naminə Cənubi Qafqazda vəziyyətin gərginləşməsində maraqlıdır. Ermənistanla Azərbaycan arasında məhz Yelisey Sarayının vasitəçilik adı ilə regionda vəziyyəti gərginləşdirməyə yönələn addımlar atdığının artıq hamı şahidi olub.

2020-2022-ci illərdə Rusiya, Azərbaycan və Ermənistan arasında əldə olunmuş kompleks razılaşmalar, o cümlədən kommunikasiyaların açılması məsələsi tam şəkildə öz aktuallığını qoruyub saxlayır. M.Zaxarova vurğulayıb ki, "üçtərəfli formatda tamhüquqlu qarşılıqlı fəaliyyətin tezliklə bərpası Cənubi Qafqazda davamlı sülhün və rifahın təmin olunmasına şərait yarada bilər".

Bu gün istər Ermənistanda, istər Azərbaycanda, istərsə də dünyada insanlar bir suala daha çox cavab axtarırlar: "İki ölkə arasında sülh müqaviləsi nə zaman imzalanacaq?" Fikrimizcə, bu sualın ən doğru cavabı Ermənistanın Fransa asılılığından xilas olduğu gündür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*